# GRADUATES OF IRAVAN TEACHERS' SEMINARY WITH NAKHCHIVAN

**Farrukh Abbasoglu**
Dean of the Faculty of Elementary Education of ADSU,
doctor of pedagogical sciences, professor, Honored Scientist
E-mail: farrukhrustamov@gmail.com
https://orcid.org/0000-0003-2033-1678

**Sevinj Rustamova**
Pedagogy of Primary Education of ASPU
teacher of the department
E-mail: rustamova.sevinc.1996@gmail.com
https://orcid.org/0000-0002-5880-0321

**Abstract.** The article mentions that at the beginning of the 19th century, Tsarist Russia occupied the territory of the Iravan and Nakhchivan khanates. An Armenian province was created on the territory of the khanates. On June 9, 1849, an independent Iravan governorate was established. Nakhchivan District was included in Iravan Governorate. Many secular elementary schools were established in Nakhchivan, but there was a lack of teachers who could teach in those schools. In general, the Iravan Teachers' Seminary was opened in 1881 with the aim of providing primary schools with teachers in Iravan governorate. The seminary played an important role in the development of education and enlightenment not only in the Iravan governorate but also in the South Caucasus in general. From 1881–1918, it completed its mission in the field of training new generation teachers with honor. The article provides information about the pedagogical activities of some of the Nakhchivan graduates of the seminary.

**Keywords:** Iravan seminary, Iravan governorate, Nakhchivan district, development of education in the South Caucasus, education, teaching staff.

**To cite this article:** Abbasoglu F., Rustamova S. (2022). Graduates of Iravan Teachers' Seminary with Nakhchivan. *Journal of Preschool and Primary Education*, Special issue – Iravan Teachers' Seminary, 2 (2022). pp. 189-200.
**Article history:** received – 14.06.2022; accepted – 18.07.2022.

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ NAXÇIVANLI MƏZUNLARI

**Fərrux Abbasoğlu**
ADPU-nun ibtidai təhsil fakültəsinin dekanı, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi
E-mail: farrukhrustamov@gmail.com
https://orcid.org./0000-0003-2033-1678

**Sevinc Rüstəmova**
ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müəllimi
E-mail: rustamova.sevinc.1996@gmail.com
https://orcid.org/0000-0002-5880-0321

**Annotasiya.** Məqalədə qeyd olunur ki, XIX əsrin əvvəllərində çar Rusiyası tərəfindən İrəvan və Naxçıvan xanlıqlarının ərazisi işğal olundu. Xanlıqların ərazisində erməni vilayəti yaradıldı. 1849-cu il, iyun ayının 9-da müstəqil *İrəvan quberniyası* təşkil olundu. Naxçıvan qəzası İrəvan quberniyasının tərkibinə daxil edildi. Naxçıvanda xeyli dünyəvi ibtidai məktəblər yaradıldı, lakin həmin məktəblərdə dərs deyə biləcək müəllim kadrları çatışmırdı. Ümumiyyətlə, İrəvan quberniyasında ibtidai məktəbləri müəllim kadrları ilə təmin etmək məqsədi ilə 1881-ci ildə İrəvan Müəllimlər Seminariyası açıldı. Seminariya nəinki İrəvan quberniyasında, ümumiyyətlə, Cənubi Qafqazda maarifçiliyin inkişafında mühüm rol oynadı. 1881–1918-ci illərdə yeni nəsil müəllim kadrları hazırlığı sahəsindəki missiyasını şərəflə başa vurdu. Məqalədə seminariyanın naxçıvanlı məzunlarının bəzilərinin pedaqoji fəaliyyətləri haqqında məlumat verilmişdir.

**Açar sözlər:** İrəvan seminariyası, İrəvan quberniyası, Naxçıvan qəzası, Cənubi Qafqazda maarifçiliyin inkişafı, təhsil, müəllim kadrları.

**Məqaləyə istinad:** Abbasoğlu F., Rüstəmova S. (2022). İrəvan Müəllimlər Seminariyasının naxçıvanlı məzunları. *«Məktəbəqədər və ibtidai təhsil»*, Xüsusi buraxılış – İrəvan Müəllimlər Seminariyası, 2 (2022). səh.189-200.
**Məqalə tarixçəsi:** göndərilib – 14.06.2022; qəbul edilib – 18.07.2022.

## Giriş / Introduction

Cənubi Qafqazda baş verən maarifçilik hərəkatında İrəvan Müəllimlər Seminariyasının xüsusi yeri olmuşdur. 140 il bundan əvvəl İrəvan şəhərində fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası Azərbaycanın təhsil və pedaqoji fikir, maarifçilik, milli-mədəniyyət tarixinin parlaq səhifələrindən biridir.

Pedaqoji elmlər doktoru, Əməkdar elm xadimi, professor Fərrux Rüstəmovun təbirincə desək, hər bir millət gələcəyə öz tarixinin çiynində gedir: "Keçmişi bilməmək yalnız indi baş verənlərin dərkinə deyil, həm də gələcəyə nüfuz etmək təşəbbüslərinə mane olur. Keçmiş bu günlə bağlı olduğu kimi, gələcəklə də sıx bağlıdır. Yalnız bu günü deyil, gələcəyi də dərindən dərk etmək, qiymətləndirmək baxımından keçmişi yaxşı öyrənməli və sələflərimizin yaratdıqları mənəvi dəyərlərə sahib çıxmalıyıq. Bu baxımdan İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi ilə bağlı ölkə prezidentinin imzaladığı sərəncam mühüm elmi-pedaqoji, siyasi-ideoloji, mədəni-mənəvi əhəmiyyət kəsb edir. Bu sərəncam İrəvan mahalında azərbaycanlıların min illər boyu yaratdığı tarixi irsə sahib çıxmaqla yaddaşımızı bərpa etməyə və strateji hədəflərə nail olmağa yönəlib" [Rüstəmov F., 2022].

1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hökumətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, onun 40 ilə yaxın bir müddətdə hazırladığı müasir dünyagörüşlü, yüksək ixtisaslı milli müəllim kadrları azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın dolğunluğunun qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmişlər.

## Əsas hissə / Main part

XIX əsrin əvvəllərində çar Rusiyası tərəfindən İrəvan və Naxçıvan xanlıqlarının ərazisi işğal olundu. 1828-ci il, mart ayının 21-də işğal edilmiş xanlıqların ərazisində erməni vilayəti yaradıldı [Əmrahov Z., 2022]. Vilayət İrəvan, Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölündü. 1833-cü ildə vilayətin inzibati-ərazi strukturunda və idarəetmə sistemində dəyişikliklər edildi. İrəvan əyaləti İrəvan, Şərur, Sürməli və Sərdarabad dairələrinə bölündü. Naxçıvan əyalətinin və Ordubad dairəsinin quruluşu olduğu kimi saxlanıldı. 1840-cı il, aprel ayının 10-da qəbul edilən "Zaqafqaziya diyarının idarəsi üçün təsisatlar" qanununa əsasən, Naxçıvan əyaləti Naxçıvan qəzasına, İrəvan əyaləti İrəvan qəzasına çevrilərək, mərkəzi Tiflis şəhəri olan Gürcü-İmereti quberniyasına tabe edildi.

1849-cu il, iyun ayının 9-da çar I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan

qəzaları Tiflis quberniyasının tərkibindən çıxarıldı və müstəqil *İrəvan quberniyası* yaradıldı. Quberniyanın ərazisi 5 qəzaya bölünmüşdü: 1) İrəvan qəzası; 2) Yeni Bəyazid qəzası; 3) Naxçıvan qəzası; 4) Ordubad qəzası; 5) Aleksandropol qəzası.

1828-ci ildən başlayaraq, Rusiya İrandan 40 min və Osmanlı dövlətindən 84600 ermənini köçürərək, işğal etdiyi İrəvan və Naxçıvan xanlıqlarının ərazilərinə yerləşdirdi. Bütün bunlara baxmayaraq, bu ərazilərdə yerli xalq olan azərbaycanlılar öz dominantlığını qoruyub saxladılar.

1853-cü ildə İrəvan şəhərində 12850 nəfər yaşayırdı. Şəhərdə qeydə alınan 2606 evdən 1437-si azərbaycanlılara, 1169-u ermənilərə məxsus idi. 1873-cü ildə İrəvan şəhərindəki evlərin sayı 2552 olmuşdur. 1873-cü ilin məlumatına görə, İrəvan qəzasında yaşayanların mütləq əksəriyyəti azərbaycanlılardan ibarət idi. Belə ki, həmin dövrdə İrəvan qəzasında yaşayanların 54,2 %-ni azərbaycanlılar, 36 %-ni ermənilər, 0,1 %-ni ruslar, 7,6 %-ni kürdlər, 0,2 %-ni yəhudilər, 1,9%-ni aysorilər təşkil edirdi.

1853-cü ilin məlumatına görə, Naxçıvan şəhərində 1334 ailədə 4410 nəfər yaşayırdı ki, onlardan da 2447 nəfərini azərbaycanlılar təşkil edirdilər. 1873-cü ilin məlumatına görə, Naxçıvan şəhərində yaşayan azərbaycanlıların sayı 6877 nəfər idi ki, onlardan 3720 nəfəri kişi, 3157 nəfəri qadın idi. 1897-ci ildə Naxçıvan qəzasında əhalinin ümumi sayı 100771 nəfər, 1910-cu ildə 125846, 1914-cü ildə 136174, 1916-cı ildə isə 136859 nəfər olmuşdur.

Çar Rusiyası Naxçıvan xanlığını işğal edənə qədər burada ənənəvi məktəb və mədrəsələrin geniş şəbəkəsi mövcud olmuşdur. XX əsrin 30-cu illərindən isə Naxçıvan qəzasında ənənəvi məktəblərlə yanaşı, çar hökuməti tərəfindən dünyəvi təhsil verən təhsil ocaqları açılmışdır. 1829-cu il, avqust ayının 2-də Rusiya Xalq Maarif Nazirliyi tərəfindən Zaqafqaziya məktəblərinin ilk nizamnaməsi əsasında Zaqafqaziyada bir gimnaziya və 20 qəza məktəbinin açılması nəzərdə tutulurdu. Azərbaycan ərazisində qəza məktəbləri Şuşa, Gəncə, Şamaxı, Bakı, Naxçıvan, Ordubad, Quba şəhərlərində və Qazax stansiyasında açılmalı idi. Şuşa (1830), Nuxa (1831), Bakı (1832), Gəncə (1834) və İrəvanda (1832) qəza məkəblərini açmaq mümkün oldu [Rüstəmov F., 2022].

1835-ci ildə yeni nizamnamə qəbul edildi. Nizamnamədə Şamaxı, Naxçıvan, Quba, Qazax stansiyası və (Ordubad şəhərində qəza məktəbinin açılması təxirə salındı) Lənkəran şəhərlərində qəza məktəblərinin yaradılması nəzərdə tutulurdu.

1837-ci il, mart ayının 15-də Naxçıvan şəhərində qəza məktəbi yaradıldı [Rzayev V., 2022]. Naxçıvan qəza məktəbi Ehsan xanın oğlanları İsmayıl və Kəlbalı xanın təşəbbüsü və himayəsi ilə, onların şəxsi evində (indi Cəmşid Naxçıvanskinin ev-muzeyi) açılmışdı.

1854-cü ildə Ordubad iki sinifli ibtidai məktəbi fəaliyyətə başladı. Naxçıvan

qəza məktəbi 1879-cu ildə üç sinifli şəhər məktəbinə çevrildi.

Naxçıvan qəza məktəbinin ilk Azərbaycan dili və şəriət müəllimi Molla Allahverdi Sultanov olub. Ondan sonra məktəbdə Azərbaycan dili və şəriət müəllimi Qulubəyov Mirzə Sadıx Mirzə Kazım oğlu olub. Sonrakı illərdə qəza məktəbində Azərbaycan dili və şəriət fənnini Əli Tağı oğlu Hüseynzadə, Molla Nəsrulla Hacı Mirzəli oğlu, Mirzə Sadıx Xəlilov, Mirzə Ələkbər Süleymanov tədris edib. Qəza məktəbinin fəaliyyətinin genişlənməsi nəticəsində Naxçıvan qəzasında bir çox dünyəvi məktəblər açılsa da, həmin məktəblərdə dərs demək üçün müəllim kadrları çatışmırdı.

Seminariyanın naxçıvanlı məzunlarının bəzilərinin tərcümeyi-halından bəzi faktlara diqqət yetirək.

**1. Həmid bəy Xəlil ağa oğlu Şahtaxtinski** 1880-cı il martın 12-də Naxçıvan qəzasının Şahtaxtı kəndində anadan olmuşdur. İlk təhsilini mollaxanada almış, III dərəcəli şəhər məktəbində oxumuşdur. 1899-cu il, iyun ayının 5-də İrəvan Müəllimlər Seminariyasının tam kursunu bitirərək, 379 nömrəli attestat almışdır. 1899-cu il, sentyabr ayının 1-də İrəvan rus-tatar (Azərbaycan – F.A.) məktəbinə müəllim təyin edilmişdir. 1901-ci ildə ona İrəvan Müəllimlər Seminariyasında tatar dili (Azərbaycan dili – F.A.) dərslərini tədris etməyə icazə verilmiş, 1902-ci il, aprel ayının 9-da həmin vəzifəyə təsdiq olunmuşdu.

1907-ci il, oktyabrın 23-də öz xahişi ilə vəzifəsindən azad edilmişdi. 1907-ci ildə Odessa Universitetinin hüquq fakültəsinə qəbul olunub. İkinci kursda oxuyarkən xəstələndiyi üçün Bakıya qayıdıb, bir il Bakı Alekseyevsk ali hazırlıq məktəbində müəllim işləyib. Sonra yenidən Odessaya qayıdaraq təhsilini davam etdirib. 1912-ci ildə universiteti bitirib. 1913-cü il, may ayının 30-da II dərəcəli diploma layiq görülüb. 1913-cü ildə Bakı quberniyası xalq məktəbləri direktorunun icazəsi ilə müəllim hazırlamaq üçün şəxsi kurs açıb. Ramanada, Alekseyevsk peşə məktəbində, Gəncə Müəllimlər Seminariyasında riyaziyyat müəllimi işləyib. Qazax və Nuxa qəzaları üzrə xalq məktəblərinin təlimatçısı olub. 1918-ci ildə Zaqafqaziya Seymi formalaşdıqdan sonra Zaqafqaziya Hökumətinin xalq təhsili naziri vəzifəsində çalışıb. 1918-ci il, iyun ayının 6-da Fətəli xan Xoyskinin Gəncədə formalaşdırdığı ikinci və üçüncü Hökumət kabinetində H.Şahtaxtinski Xalq Maarifi və Dini etiqadlar nazirinin müavini olub. 1919-cu il, dekabr ayının 24-də N.Yusifbəylinin formalaşdırdığı ikinci (sayca 5-ci) hökumət kabinetində maarif və dini etiqadlar naziri təyin olunub. BDU-nun təşkilində önəmli rol oynayıb, orada müəllim, prorektor (1919–1925) işləyib. Ali Pedaqoji İnstitutun yaradılması layihəsinin müəlliflərindən biri olub. Ali Pedaqoji İnstitutda, Bakı Xalq Maarifi şöbəsinin nəzdindəki ikiillik Müəllimlər İnstitutunda, Tibb İnstitutunda (1930–1940) işləyib. Pedaqoji İnstitutda pedaqogika və psixologiya fənlərindən dərs deyib. Həmid bəy, eyni zamanda Tiflisdəki Zaqafqaziya Uni-

versitetinin tibb fakültəsini də bitirmişdir (1928). 1930-cu ildə, ADU-nun 10 il-lik yubileyində ona professor elmi adı verilmişdir. Azərbaycan Tibb İnstitutunun professoru olub. Azərbaycan dilində elmi terminologiyanın tərtibi üzrə komissiyaların sədri olmuş, yeni Azərbaycan əlifbasının və ümumtəhsil məktəbləri üçün dərsliklərin hazırlanmasında iştirak etmişdir. H.Şahtaxtinski repressiyaya məruz qalmış, 1941-ci ildə həbs edilərək sürgün edilmişdir. 1944-cü il, fevral ayının 3-də Arxangelsk vilayətində, sürgündə həlak olmuşdur...

**2. Qasım bəy Abbasqulu bəy oğlu Camalbəyov (1881–1938)** 1881-ci ildə Naxçıvan şəhərində anadan olub. İlk təhsilini Naxçıvan mədrəsəsində və M.T.Sidqinin "Tərbiyə" məktəbində alıb. 1898–1901-ci illərdə şəhər məktəbində, 1901–1904-cü illərdə İrəvan Müəllimlər Seminariyasında oxuyub. 1904-cü ilin sentyabrından 1912-ci ilin dekabrına qədər İrəvan quberniyasının müxtəlif kəndlərində müəllim işləyib. 1903–1904-cü illərdə gizli siyasi fəaliyyətə başlayıb. 1912-ci ildən Persiyanın Culfada yerləşən bankında tərcüməçi işləyir. Bir ildən sonra müvəqqəti olaraq həmin bankın Koçan (Persiya) şəhərindəki agentliyinə işə göndərilir, lakin bir neçə aydan sonra bankın Petroqrad idarəsindən gələn göstərişə əsasən işdən azad edilir. Bakıya gələrkən həbs edilərək Krasnovodska göndərilir. Oradan Bakıya qaçmağa nail olur. Cəfər Axundov adında bir şəxsin yardımı ilə Bibiheybətdəki "Rapid" mexanika zavoduna yerləşir. Bir müddət Bakıda qeyri-leqal yaşayır. Onun Qafqazdan Rusiyaya qeyri-müəyyən müddətdə sürgün edilməsi haqqında hökmdən xəbər tutduqdan sonra dəniz yolu ilə Həştərxana gedərək, silahdaşı İbrahim Əbilovun yanında müvəqqəti sığınacaq əldə edir.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından sonra Tiflisdə fəaliyyət göstərən Milli Şuranın üzvlərindən biri, sonralar isə parlamentin deputatı olub. Milli hökumətin Gəncədəki fəaliyyəti zamanı Milli Şuranın üzvü kimi fəaliyyət göstərib. 1918-ci il, iyun ayının 17-də qəbul olunmuş "Azərbaycan milli şurasının ikinci müvəqqəti hökumətin heyəti haqqında qərarı"nda Milli Şuranın üzvləri ilə bir sırada onun da adı çəkilir.

1918-ci il, dekabr ayının 7-də açılan Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sosialist fraksiyasında (sosialistlər 12 deputatla təmsil olunurdular) təmsil olunan Qasım bəy Camalbəyov parlamentin işində fəal iştirak etmiş, müəssislər məclisinin çağırılması üzrə mərkəzi komissiyanın üzvü olmuşdur. Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra isə fars dilini mükəmməl bildiyi və əvvəllər İranın müxtəlif şəhərlərində çalışması ilə əlaqədar olaraq, Təbriz şəhərində Naxçıvanın ilk konsulu kimi fəaliyyət göstərib.

1938-ci il, yanvar ayının 9-da Bakıda qətlə yetirilib.

**3. Tağı bəy Baxşəli bəy oğlu Səfiyev** 1878-ci ildə, Baş Noraşendə (indiki Şərur rayonunun Cəlilkənd kəndi) anadan olub. İlk təhsilini Baş Noraşendəki

iki sinifli zemstvo məktəbində C.Məmmədquluzadədən alıb. C.Məmmədquluzadənin təklifi ilə 1889–1893-cü illərdə İrəvan Müəllimlər Seminariyasında oxuyub. Seminariyanı bitirdikdən sonra iki il öz kəndlərində yerləşən məktəbdə dərs deyib. 1895/1896-cı tədris ilindən pedaqoji fəaliyyətini C.Məmmədquluzadənin müdir olduğu iki sinifli Nehrəm məktəbində, ikinci müəllim kimi davam etdirib. "Molla Nəsrəddin" jurnalının fəal yazarlarından olub. Sovet hakimiyyəti illərində Naxçıvan məktəblərində pedaqoji fəaliyyətini davam etdirib. Qars müqaviləsinin (1921) imzalanması prosesində Naxçıvanın təmsilçisi olub.1923-cü ildə Naxçıvan Xalq Maarif Komissarlığında inspektor vəzifəsində çalışıb. "Rusca-türkcə lüğət"in (1929) müəllifidir. "Maarif zərbəçisi" döş nişanına layiq görülüb.

1937-ci ildə, Baş Noraşen rayonunun Cəlilkənd kəndində vəfat etmişdir

**4. İbrahim Qafar oğlu Səfiyev** (İbrahim Səfi) 1898-ci ildə, Naxçıvan qəzasının Şərur bölgəsində anadan olub. Üç yaşında atasını itirib. İlk təhsilini Baş Noraşen (indiki Cəlilkənd) kənd məktəbində aldıqdan sonra təhsilini İrəvan Müəllimlər Seminariyasında davam etdirib. 12 yaşında olarkən "Araz balıqçıları" adlı ilk rəsmini çəkib. 1915–1917-ci illərdə Moskva Rəssamlıq Akademiyasında oxuyub. Rusiyada baş verən 1917-ci il inqilabından sonra təhsilini yarımçıq qoyaraq Naxçıvana qayıdıb. Birinci Dünya müharibəsində Zaqafqaziya ordusunun tərkibində Türkiyəyə gedib və ömrünün sonuna qədər burada yaşayıb. Atatürkün portretini çəkən ilk rəssamlardan biridir. 1920-ci ildə Türkiyədə keçirilən Avropa rəssamları müsabiqəsinin mükafatını alıb. 1923-cü ildə İstanbulda *Sanayi Nefise Mektəbini* (Gözəl Sənətlər Akademiyası) bitirib. Türkiyənin məşhur rəssamı Namik İsmayılın emalatxanasında «misafir talebe» olaraq çalışıb.

1924-cü ildən etibarən beynəlxalq sərgilərdə iştirak edib.11 il Avropa ölkələrində yaşayıb. Türkiyə ilə yanaşı, Fransa, Avstriya, ABŞ, İsveçrə və s. ölkələrdə fərdi sərgiləri olub.

1983-cü il, yanvar ayının 4-də, *Oda Kule* iş mərkəzinin art salonunda yüzüncü fərdi sərgisinin açılışı günündə, axşam qəflətən vəfat edib.

**5. Mirzə Cəlil oğlu Mirzəyev (Şürbi)** 1874-cü il, fevral ayının 12-də, Naxçıvan şəhərində anadan olub. 1888–1892-ci illərdə İrəvan Müəllimlər Seminariyasında təhsil alıb. Şərur–Dərələyəz qəzasındakı Aralıq ibtidai məktəbində pedaqoji fəaliyyətə başlayıb.1894-cü ildə Cəlil Məmmədquluzadənin müdir olduğu Nehrəm məktəbində işləyib. Daha sonra pedaqoji fəaliyyətini Naxçıvan şəhər ibtidai məktəbində davam etdirib. 1903–1908-ci illərdə Ordubad qəzasının Vənənd kənd ibtidai məktəbinin, 1909–1913-cü illərdə Naxçıvan şəhər rus-tatar məktəbinin müdiri olub. Kollec registratoru rütbəsinə layiq görülüb. 27 avqust, 1914-cü ildə Şahbuza müəllim göndərilsə də, üç ay sonra vəzifəsindən azad edlib.

C.Məmmədquluzadənin təşviqi ilə teatr hərəkatına qoşulub, Naxçıvan teatrında qadın rollarını oynayıb, ədəbi-maarif tədbirlərinin təşkilində fəal iştirak

edib. "Şürbi" təxəllüsü ilə şeirlər yazıb. Maarifçi məzmunlu şeirlərində («Elm və cəhalət», «Səhranişin və ayı» və s.) fanatizmi, gerilik və cəhaləti tənqid edib, böyümək də olan nəsli yeniliyə, elmə və maarifə çağırıb. "Molla Nəsrəddin" jurnalının Naxçıvan üzrə təmsilçisi kimi, jurnalın abunə və satış məsələləri ilə məşğul olub, jurnala xəbərlər və məqalələr göndərib. «Şərqi-Rus" qəzetində yazıları nəşr olunub. Cəlil Məmmədquluzadə "Ölülər" komediyasında İskəndər obrazının prototiplərindən biri kimi Şürbidən faydalanıb.

M.C.Mirzəyev (Şürbi) 1915-ci ildə, İranın Rəşt şəhərində vəfat edib.

**6. İbrahim ağa Hacı Vəli ağa oğlu Şahtaxtinski** 1881-ci ildə, Şahtaxtı kəndində anadan olub. Şahtaxtı kəndində, Naxçıvanda, Dərələyəzdə geniş torpaqların, çoxsaylı mülklərin sahibi olub. Atasından qalan var-dövlətini öz xalqının maariflənməsinə, təhsil almasına və xeyriyyəçiliyə sərf edib. İrəvan Müəllimlər Seminariyasının məzunu olan İbrahim ağa böyük maarifçi kimi tanınıb. Naxçıvanın ilk məktəblərindən olan Şahtaxtı kənd ikisinifli məktəbi onun himayəsində və şəxsi mülkündə fəaliyyət göstərib. 1913–1914-cü illərdə Bakıda jandarm idarəsində işləyib. 1918–1920-ci illərdə İrəvandan, erməni vandallarının zülmündən qaçqın düşmüş soydaşlarımıza kömək göstərib. Naxçıvanda İnqilab Komitəsinin sədri və ictimai təminat nazirinin müavini işləyib. 1926-cı ildən sonra İbrahim ağaya qarşı sistemli təzyiqlər başlayıb. Mülkləri müsadirə olunub. Həbs edilərək Tiflisdəki Metex qalasına göndərilib. Sonra həbsdən buraxılsa da, həyatının ağır günlərini yaşamalı olub. İş tapmaq məqsədi ilə Bakıya gələn İbrahim ağa qəflətən burada vəfat edib...

**7. Mirzə Bağır Yusif bəy oğlu Əliyev** 1882-ci ildə, Naxçıvan şəhərində anadan olub. Atasının Nehrəm kəndində və Naxçıvan şəhərində mülkləri olub. İlk təhsilini Naxçıvan şəhər qəza məktəbində alıb. İrəvan Müəllimlər Seminariyasının məzunu olub. Qəza məktəbində və seminariyada rus dilini, molla yanında isə ərəb, fars dillərini mükəmməl öyrənib. 1908-ci il, sentyabr ayının 11-də İrəvan quberniyası xalq məktəbləri müdirinin əmri ilə Culfanın Yaycı kənd məktəbinə nəzarətçi (müdir) vəzifəsinə təyin edilib. Maarifin inkişafında mühüm xidmətləri olan Mirzə Bağır Əliyev Yaycı məktəbində müdir olmaqla yanaşı, həm də rus dili və hesab fənlərini tədris edib. 1909-cu ilin oktyabr ayında quberniya mərkəzindən Yaycı kənd məktəbini yoxlamağa gələn inspektor Razumovski yoxlamadan sonra tərtib etdiyi aktda belə yazırdı: "19 sentyabr, 1909-cu ildə Yaycı məktəbini ziyarət etdim. Məktəbin müəllimi Mirzə Bağır Əliyevin rus dili və hesab dərslərində iştirak etdim. Dərslər qənaətbəxşdir və cənab Əliyevin tədris işində səy və istəyi görünür".

1912-ci ilin aprel ayından 1916-cı ilin aprel ayına qədər Nehrəm məktəbində nəzarətçi (müdir) işləyib. Onun təşəbbüsü ilə məktəb təmir olunub, məktəb kitabxanasına Naxçıvandan və İrəvandan xeyli kitab gətirilib. Naxçıvanın erməni tə-

cavüzkarlarından və xarici müdaxiləçilərdən azad olunmasında fəal iştirak edib. Naxçıvan Müsəlman Milli Komitəsinin (sonralar Milli Şura), Naxçıvan Araz-Türk Cümhuriyyətinin və Müvəqqəti hökumətin katibi işləyib. "Qanlı günlərimiz" kitabının müəllifidir. 1920-ci il, oktyabr ayının 10-da İnqilab Komitəsinin qərarı ilə Daxili İşlər Şöbəsinin ümumi məlumat-təlimat şöbəsinin rəisi olub.

Sovet hakimiyyəti illərində Mirzə Bağır Əliyev müəllim, hüquqşünas, vəkil kimi də fəaliyyət göstərib. "Səyyar" təxəllüsü ilə şeirlər yazıb. Onun qızı, Azərbaycan SSR xalq artisti (1967), "Şöhrət" ordenli (2000), Prezident təqaüdçüsü (1995) Zəroş Həmzəyevanın atası haqqında yazdığı "Atam haqqında bir neçə söz" məqaləsindən məlum olur ki, o, 1937-ci ildə Naxçıvanın Siyasi İdarəsi tərəfindən həbs edilib. 1938-ci il, sentyabrın 1-də Naxçıvan şəhərində qəflətən (ürək tutmasından) vəfat edib.

**8. Həsən Səfər oğlu Səfərli** 1888-ci il, noyabr ayının 23-də, Naxçıvan şəhərində anadan olub. İbtidai təhsilini Naxçıvanda alıb.1913–1917-ci illərdə İrəvan Müəllimlər Seminariyasında təhsil alıb. Seminariyada fəaliyyət göstərən dram dərnəyinin fəal üzvlərindən olub. İrəvanın teatr truppasında epizodik rollarda çıxış edib. Səhnəyə ilk dəfə 1909-cu ildə, Hüseyn Ərəblinskinin tamaşaya qoyduğu «Nadir şah» pyesindəki rolu ilə qədəm qoyub. Pedaqoji fəaliyyətə Naxçıvanda başlayıb. Müəllimlik fəaliyyəti ilə yanaşı, həvəskarların teatr truppasının fəal üzvlərindən biri olub. 1931-ci ilə qədər Naxçıvan Dövlət Dram Teatrında aktyor, rejissor, baş rejissor kimi çalışıb. Naxçıvanda ibtidai və orta məktəblərdə, müəllimlər seminariyasında, pambıqçılıq texnikumunda, ikiillik Müəllimlər İnstitutunda dərs deyib. 18 may, 1960-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Əməkdar müəllimi fəxri adına layiq görülüb. 1960-cı il, iyun ayının 2-də Naxçıvan şəhərində vəfat edib.

**9. Heydər Sadıq oğlu Vəzirov** 1893-cü ildə, Naxçıvanın Nehrəm kəndində anadan olub. İlk təhsilini Naxçıvanda, üsuli-cədid məktəbində alıb.1913-cü ildə İrəvan Müəllimlər Seminariyasını bitirib. Birinci Dünya müharibəsi başlananda qısa müddətdə hərbi məktəbdə təhsil almış və ön cəbhəyə göndərilmişdi. 1915-ci ilin iyun ayında kiçik zabit rütbəsində Qalitsiya uğrunda döyüşlərdə iştirak etmiş və almanlar tərəfindən əsir alınmışdır. 1918-ci ildə hərbi əsirlər dəyişdirilərkən Azərbaycana qayıtmışdır. 1918-ci ilin noyabr ayında Azərbaycan Xalq Cümhuriyyəti Milli Ordusunun kiçik komandirlər məktəbində müəllim işləmişdir. 1923-cü ildə, respublika hərbi komissarı kimi, milli hərbi kadrların hazırlanmasında göstərdiyi xidmətlərə görə «Qırmızı bayraq ordeni" ilə təltif edilmişdir.1925–1927-ci illərdə Göyçay Qəza İcraiyyə Komitəsinin sədri, 1927–1933-cü illərdə Azərbaycan SSR Xalq Torpaq Komissarı vəzifələrində işləmişdir. Azərb.K(b)P-nin XII və XIII qurultaylarında MK-nın üzvü, Azərbaycan MİK (8-ci çağırış), ZSFSR MİK (7-ci çağırış) və SSRİ MİK-in (7-ci çağırış) üzvü seçilmişdir.

1937-ci ildə repressiyaya məruz qalmışdır...

**10. Sadıq Xəlilov** 1864-cü il, dekabr ayının 20-də, Naxçıvan şəhərində anadan olub. İbtidai təhsilini Naxçıvanda alıb. 1886-cı ildə İrəvan Müəllimlər Seminariyasını bitirib. Pedaqoji fəaliyyətə Yengicə kənd məktəbində başlayıb.1888–1892-ci illərdə Nehrəm məktəbində işləyib. 1892–1901-ci illərdə yenidən Yengicə kənd məktəbinə işə qayıdıb. 1901-ci ildə Naxçıvan üçsinifli şəhər məktəbinə Azərbaycan dili və şəriət müəllimi təyin olunub. 1905-ci ildə ermənilər tərəfindən öldürülüb...

**11. Mirzə Həsən Nəsirbəyov** Cəlil Məmmədquluzadə ilə bir sinifdə oxumuş, İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. 1914-cü ildə Bakıya köçən Mirzə Həsən İçərişəhərdə yaşamış, burada mədrəsənin nəzdində ibtidai məktəb açmışdır. Oğlu Məmməd Nəsirbəyov 1940-cı ildə Ü.Hacıbəyov adına Bakı Konservatoriyasının bəstəkarlıq fakültəsini bitirmişdir.

İrəvan Müəllimlər Seminariyasında oxuyan naxçıvanlıların sayı çox olsa da, biz hələlik yalnız haqlarında qısa olaraq bəhs etdiyimiz şəxsləri müəyyənləşdirə bilmişik. Məlum olan odur ki, seminariyanın məzunları İrəvan quberniyasında, o cümlədən quberniyanın Naxçıvan qəzasında maarifin və maarifçiliyin inkişafında, yayılmasında, Naxçıvan sovetləşdirildikdən sonra isə burada savadsızlığın ləğvində, icbari ibtidai təhsilin inkişfında əsl fədakarlıq göstərmiş, yeni nəslin təlim-tərbiyəsində xüsusi xidmətləri ilə seçilmişlər.

## Nəticə / Conclusion

Beləliklə, İrəvan quberniyasında ibtidai məktəbləri müəllim kadrları ilə təmin etmək məqsədi ilə 1881-ci ildə İrəvan Müəllimlər Seminariyası yaradıldı [Kavkazskiy kalendar na 1884 qod, 1883]. Seminariya nəinki İrəvan quberniyasında, ümumiyyətlə, Cənubi Qafqazda maarifin və maarifçiliyin inkişafında mühüm rol oynadı. 1918-ci ildə yeni nəsil müəllim kadrları hazırlığı sahəsində öz missiyasını şərəflə başa vurdu [Rüstəmov F., 2022].

Seminariyanın məzunları sırasında ölkənin dörd bir tərəfindən, o cümlədən Naxçıvandan, xalqımızın bir çox tanınmış şəxsiyyətləri və görkəmli ziyalıları olmuşdur. Seminariyanın Naxçıvan məzunlarından Həmid bəy Şahtaxtinskinin, İbrahim Şahtaxtlının, Tağı bəy Səfiyevin, İbrahim Səfinin, Mirzə Bağır Əliyevin və başqalarının adlarını çəkmək olar. İrəvanda, Naxçıvanda maarifin inkişaf etdirilməsi sahəsində bu insanların böyük xidmətləri olub.

Təəssüflər olsun ki, Naxçıvanın bu maarifpərvər ziyalılarının çox hissəsi azərbaycanlılara qarşı törədi lən təcavüzkar (ermənilərin iştirakı ilə) siyasətin qurbanı olmuş, bəziləri sürgünlərdə, bəziləri qürbətdə, bəziləri isə öz vətənlərində dünyasını dəyişmişlər.

**Məqalənin aktuallığı.** Məqalədə İrəvan Müəllimlər Seminariyasının naxçıvanlı məzunlarından, onların elmi-pedaqoji, ictimai-siyasi fəaliyyətindən söhbət açılır. Çar Rusiyasının, tarixin sonrakı dövrlərində isə Sovet dövlətinin, ermənilərin Azərbaycan xalqına qarşı münasibəti uzun illər gizli saxlanılmışdır. Bu cəhətdən məqalədə qoyulan problemlər, tədqiq olunan məsələlər bu gün də aktualdır və geniş tədqiqatlar tələb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə İrəvan Müəllimlər Seminariyasının naxçıvanlı məzunlarının bir çoxunun tərcümeyi-halından bəzi faktlar təhlil olunur. Çar Rusiyasının Azərbaycan xalqına, Azərbaycan ziyalılarına olan ikili, demək olar ki, düşmən münasibət bəslədiyi faktlarla göstərilir. Bu ikili yanaşma bir çox hallarda Azərbaycan ziyalılarının həyatı, gələcəyi və karyerası bahasına başa gəlirdi.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalə Azərbaycanın təhsil tarixi, İrəvan Müəllimlər Seminariyasının naxçıvanlı məzunları ilə maraqlanan tədqiqatçılar, elmi işçilər, müəllimlər, tələbələr üçün geniş və qiymətli məlumat mənbəyidir. Onlar bu məqalədən Azərbaycan təhsil tarixi haqqında biliklərini artırmaq, dünyagörüşlərini formalaşdırmaq üçün istifadə edə bilərlər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 29 dekabr 2021-ci il, № 3094.
2. Allahverdiyev C. (2022). İrəvan Müəllimlər Seminariyası. Bakı, "Elm və təhsil".
3. Əmrahov Z. (2022). İrəvan quberniyasının tarixi (1850–1917-ci illər). Bakı, "Nurlar".
4. Rüstəmov F. (2022). Azərbaycanlı müəllim kadrlarının hazırlığında İrəvan Müəllimlər Seminariyasının rolu. "Azərbaycan məktəbi", №1, s. 105–122.
5. Rüstəmov F. (2022). Qərbi Azərbaycan həqiqətləri: İrəvan Müəllimlər Seminariyası və onun məzunları. Bakı.
6. Rzayev V. (2022) Naxçıvanda məktəb təhsili və pedaqoji fikrin inkişaf tarixi (XIX əsr və XX əsrin əvvəlləri). Pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyanın avtoreferatı. Naxçıvan.
7. Rudolf N.F. (1914). Obzor deyatel'nosti Kavkazskogo uchebnogo okruga. (1908–1912 gg.). Tiflis, 231 s.

8. Rustamov F. (2022). Irevanskaya uchitelskaya seminariya – 140. https://azertag.az/ru/xeber/Irevanskaya_uchitelskaya_seminariya___140-1979214
9. Kavkazskiy kalendar na 1884 g. (1883). Tiflis.